ƏDƏBI MƏKTƏBIN TƏZAHÜR FORMALARı

Ulduz Fərhad Qəhrəmanova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
"Ədəbiyyat" kafedrasında dosent
ulduzkahraman1@gmail.com
Orcid İD: 0009-0003-4418-9319
https://doi.org/10.5281/zenodo.21784378

Annotasiya:
Tədqiqatçı məqalədə ədəbi məktəb termininin çox vaxt ədəbi metod, ədəbi cərəyan terminləri ilə yanaşı işlədilməsini təhlil etmişdir. Elmi təhlillərdən məlum olur ki, çox zaman bu terminlərin sinonim sözlər kimi işlədilməsi onları bir-birindən fərqləndirməyə çətinlik törədir. Lakin aralarında nə qədər yaxınlıq olsa da, ədəbi cərəyanla ədəbi məktəbi eyniləşdirməyi tədqiqatçı qəbul etmir. Araşdırmaçıya görə, ədəbi məktəb hər hansı bir ədəbi cərəyanının prinsipləri əsasında formalaşaraq özünü göstərir.
Açar sözlər: ədəbi məktəb, ədəbi metod, ədəbi üslub, ənənə, sələf-xələf əlaqələri

FORMS OF MANIFESTATION OF THE LITERARY SCHOOL

Abstract:
The term literary school is often used alongside the terms literary method and literary movement. Often, the use of these terms as synonymous words makes it difficult to distinguish them from each other. Despite the closeness between them, it is incorrect to identify a literary movement with a literary school. Although a literary school is not formed on the basis of the principles of any literary movement, there are also literary schools associated with the names of individual prominent artists. For example: Nizami literary school, Fuzuli literary school, Sabir literary school, Mirza Jalil literary school, S. Vurgun literary school, R. Reza literary school, etc.

The pioneering traditions of writers have determined the creative direction of their successors, the literary generation. Literary trends are formed in the form of literary schools. The result of a literary trend manifests itself as a literary school. A literary school is a realized literary trend. The concept of a literary school is associated with the acceptance of the creative characteristics of a writer or poet by others.

A literary trend manifests itself in: 1. Literary schools; 2. Literary stylistic trends

1. A literary school formed on the basis of the traditions of great artists. That is, a specific great artist can create a school that continues his actions and ideals after him. At this time, the caliphs (newcomers-U.K.) keep alive and continue the path, method, and ideas of the great masters of words and create a literary school.

2. A literary school formed by artists united in a specific literary epoch and press in terms of style, aesthetic ideal, and artistic-philosophical expression. That is, different artists unite with the same goal to create a literary school.
Keywords: literary school, literary method, literary style, tradition, predecessor-successor relations

Ədəbi məktəb termini çox vaxt ədəbi metod, ədəbi cərəyan terminləri ilə yanaşı işlədilir. Çox zaman bu terminlərin sinonim sözlər kimi işlədilməsi onları bir-birindən fərqləndirməyə çətinlik törədir. Ədəbi məktəblər əsasında hər hansı bir ədəbi cərəyanın formalaşması bir faktdır.

Məsələn: Almaniyada romantizm ədəbi cərəyanı "Yena məktəbi" nümayəndələrinin, Fransada realizm "realist" məktəb nümayəndələrinin fəaliyyəti nəticəsində yaranmış, formalaşmışdır. Aralarında nə qədər yaxınlıq olsa da, ədəbi cərəyanla ədəbi məktəbi eyniləşdirmək düzgün deyildir. Məsələn: "Molla Nəsrəddin" jurnalının ətrafında cəmləşən yazıçılar realizm ədəbi cərəyanının, eyni zamanda "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndələridir.

Ədəbi məktəb hər hansı bir ədəbi cərəyanının prinsipləri əsasında formalaşmasa da, ayrı-ayrı görkəmli sənətkarların adı ilə bağlı ədəbi məktəblər də vardır. Məsələn: Nizami ədəbi məktəbi, Füzuli ədəbi məktəbi, Sabir ədəbi məktəbi, Mirzə Cəlil ədəbi məktəbi, S.Vurğun ədəbi məktəbi, R.Rza ədəbi məktəbi və b.

Yazıçıların qabaqcıl ənənələri onların davamçıları olan ədəbi nəslin yaradıcılıq istiqamətini müəyyənləşdirmişdir. Ədəbi cərəyanlar ədəbi məktəb şəklində formalaşır. Ədəbi cərəyanın yekunu ədəbi məktəb kimi özünü göstərir. Ədəbi məktəb reallaşan ədəbi cərəyandır. Ədəbi məktəb anlayışı bir yazıçının, şairin yaradıcılıq xüsusiyyətlərinin başqaları tərəfindən qəbul edilməsi ilə bağlıdır.

Ədəbi cərəyan özündə təzahar etdirir:

1.Ədəbi məktəblər

2. Ədəbi üslubi təmayüllər

1.Dahi sənətkarların ənənələri zəminində formalaşmış ədəbi məktəb. Yəni konkret bir dahi sənətkar özündən sonra onun əməl və ideallarını davam etdirən məktəb yarada bilər. Bu zaman xəlifələr (yeni yetişənlər-U.Q.) böyük söz ustalarının yolunu, üsulunu, ideyalarını yaşadır, davam etdirir və ədəbi məktəb yaradırlar. Deməli, ustad sənətkar kimi qəbul edilən hər hansı bir yazıçının yaradıcılığı o janrda, o üslubda yazan sələf üçün (yeni yetişənlər-U.Q.) məktəb rolunu oynayır. Ədəbiyyatşünaslıqda buna ədəbi məktəb deyirlər. Eyni bir dövrdə olduğu kimi müxtəlif dövrdə yaşayan müəlliflər vahid bir ədəbi məktəbin nümayəndəsi ola bilər. Məsələn: Füzuli ədəbi məktəbi, Vaqif ədəbi məktəbi, Axundov ədəbi məktəbi, Sabir ədəbi məktəbi və b.Yaxud: Nizami Gəncəvidən bir əsr sonra Hind şairi Əmir Xosrov Dəhləvi, XV əsrdə isə böyük Özbək şairi Ə.Nəvai dahi Nizaminin "Xəmsə" ənənələrini davam etdirərək Şərqdə Nizami ədəbi məktəbini yaratmışlar.

Göründüyü kimi, hər hansı bir klassik sənətkarı xələflər (sonra gələnlər-U.Q.) özlərinə ustad hesab edirlər və onun kimi yazmağa çalışırlar ki, bununla da özlərinə ustad hesab edənlərin (sələflərin-U.Q.) ədəbi məktəbini yaratmış olurlar. Ancaq həmin klassik sənətkarların yaradıcılığını təkrarlamamaq şərti ilə ədəbi məktəb yarada bilərlər. Əgər həmin klassik sənətkarın yaradıcılığı təkrarlanmış olarsa, yəni yamsılama olarsa, bu ədəbi məktəb yox, epiqon ədəbiyyatını yaratmaq deməkdir. Yəni: ustad kimi qəbul olunan bir nəfər sənətkarın yaradıcılığı o janrda, o üslubda yazan sənətkar üçün o zaman məktəb rolunu oynayır ki, onun öz yaradıcılığında ənənəyə söykənən novatorluğu olsun. Bu zaman xələf sələfdən bəhrələnərək ədəbi məktəb yaratmış olur.

Deməli, ədəbi məktəb üzərində yaradıcılığını kökləyən o sənətkarların yaradıcılığı uğurlu olur ki, onun üzərində öz novator yaradıcılığını ortaya qoya bilsin. Əgər ədəbi məktəb hesab etdiyi sənətkarın yaradıcılığını yamsılayırsa, bu artıq epiqon ədəbiyyatının nümayəndəsinə çevrilməsi deməkdir. Məsələn: XIX əsrin əvvəllərinə qədər Nizami, Füzuli kimi klassiklərə yüzlərlə nəzirələr yazılmışdı ki, bu artıq poeziyada epiqonçuluğa səbəb oldu. Belə nəzirəçilik epiqonçuluğa gətirib çıxartdı.

2.Üslub, estetik ideal, bədii-fəlsəfi ifadə tərzi baxımından konkret ədəbi epoxada, mətbu orqanında birləşmiş sənətkarların formalaşdırdığı ədəbi məktəb. Yəni müxtəlif sənətkarlar eyni bir məramla birləşərək ədəbi məktəb yaradırlar. Ümumuyyətlə, üslub yaradıcılıqla məşğul olan müəlliflərin fərdi sənətkarlıq xüsusiyətləridir. Yəni üslub yaradıcılığı olan müəlliflərin fərdi, təkrarolunmaz sənətkarlıq xüsusiyyətləridir.

Üslubi təmayül üsullar məcmusudur. Ədəbi üslub sənətkar yaradıcılığının yaşadığı dövrünün tarixi gerçəyi, gedişatı ilə izah olunur. Yəni: Əgər Nəsimi yaradıcılığını düzgün qavramaq istəyirsənsə, Nəsiminin yaşadığı dövrdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələri, sufizm, hurifizm kimi dini hərəkatlarının mahiyyətini öyrənmək lazımdır.

Çox vaxt metod və üslub sözünü eyniləşdirən ədəbiyyatşünaslar da vardı. Qeyd edək ki, "metod" sözünün yunancadan tərcümə mənası "izah üsulu" deməkdir. "Metod" anlayışı bədii üsul (stil) anlayışına yaxındır. Ədəbi cərəyanın üslubla əlaqəsi danılmaz, bədii metodun isə üslubla eyniləşdirilməsi qəbuledilməzdir. Ədəbi cərəyan ədəbi prosesin hadisəsidir. Bədii metod yaradıcılıq prosesinin hadisəsidir. Metodlar yazıçıların şəxsiyyətində, yaradıcılığında birləşərək ədəbi cərəyana daxil olur, onu əmələ gətirir. Məsələn: XX əsr Azərbaycan ədəbiyyatında "Molla Nəsrəddin" jurnalı ətrafında fəaliyyət göstərən C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Qəmküsar və b. "mollanəsrəddinçilər" adlı realist ədəbi məktəb yaratdılar. Yaxud: "Fyüzat" məcmuəsinin müəllifləri Ə.Hüseynzadə, Ə.Ağayev, H.Cavid və b. "füyuzatçılar" adlı romantik ədəbi məktəb yaratdılar.

Eyni məktəbə daxil olan bu yazıçılar müxtəlif üslubda, müxtəlif janrlarda yaza bilərlər. Lakin onları eyni bir ideal birləşdirməlidir.

Ədəbiyyat:

1. Xalid Əlimirzəyev, (2008) "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları", Bakı
2. Mir Cəlal, Pənah Xəlilov,(2005) "Ədəbiyyatşünaslığın əsasları", Bakı, Çaşıoğlu
3. Məmməd Əliyev, (2000) "Ədəbiyyat nəzəriyyəsinin əsasları", Bakı
4. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı
5. Nizaməddin Şəmsizadə, (2012) "Ədəbiyyat nəzəriyyəsi", Bakı
6. Rafiq Yusifoğlu, (2001) "Ədəbiyyatşünaslığın əsasları", Bakı
7. Rəhim Əliyev, (2008) "Ədəbiyyat nəzəriyyəsi", Bakı